# Bəyanat

1. Azərbaycan Respublikası bəyan edir ki, “Nüvə materialının fiziki mühafizəsi haqqında” Konvensiya və “Nüvə materialının fiziki mühafizəsi haqqında” Konvensiyaya Düzəliş”in müddəaları Ermənistan Respublikasına münasibətdə Azərbaycan Respublikası tərəfindən tətbiq edilməyəcəkdir.

2. Azərbaycan Respublikası bəyan edir ki, o, Ermənistan Respublikası tərəfindən işğal olunmuş ərazilərində (Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionu və ona bitişik yeddi rayonu) “Nüvə materialının fiziki mühafizəsi haqqında” Konvensiya və “Nüvə materialının fiziki mühafizəsi haqqında” Konvensiyaya Düzəliş”in müddəalarının həyata keçirilməsinə həmin ərazilər işğaldan azad olunanadək və işğalın nəticələri tam aradan qaldırılanadək təminat vermək iqtidarında deyildir.

3. Azərbaycan Respublikası bəyan edir ki, bu bəyanatın 1-ci və 2-ci bəndlərinin müddəalarını istənilən zaman dəyişdirmək və ya ləğv etmək hüququnu özündə saxlayır və digər Tərəflər hər hansı belə dəyişikliklər və ləğvetmələr haqqında məlumatlandırılacaqlar.